Azərbaycan Milli Konservatoriyasında keçiriləcək anım gecəsində Təhsil Nazirliyinin rəhbərliyi, struktur bölmə rəhbərləri və əməkdaşları iştirak edəcəklər. Həmçinin, tədbirə ali məktəb rəhbərləri, təhsil ictimaiyyətinin nümayəndələri, tanınmış ziyalılar və incəsənət xadimləri qatılacaqlar.

Hər il olduğu kimi, xalqımız ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla anır, ulu öndərin keçdiyi zəngin həyat yoluna və şərəfli siyasi fəaliyyətinin əsas məqamlarına bir daha nəzər salınır. Bu baxımdan ölkəmizin təhsil ictimaiyyəti və tədris ocaqlarının pedaqoji kollektivləri tərəfindən keçirilən anım tədbirləri özünəməxsus yer tutur.